# ELMİ TƏDQİQAT

Beynəlxalq onlayn elmi jurnal

# SCIENTIFIC RESEARCH

International online scientific journal

aem.az

AEM

e-ISSN: 2789-6919

## III RESPUBLİKA ELMİ KONFRANSI

## III REPUBLICAN SCIENTIFIC CONFERENCE

12.01.2024

# ELMİ TƏDQİQAT

**Beynəlxalq onlayn elmi jurnal**
**İmpakt Faktor: 1.172**

---

**III RESPUBLİKA ELMİ**
**KONFRANSI**

DOI: https://doi.org/10.36719/2789-6919/2024/III

# SCIENTIFIC RESEARCH

**International online scientific journal**
**Impact Factor: 1.172**

---

**III REPUBLICAN SCIENTIFIC**
**CONFERENCE**

**(12.01.2024)**

**Bakı – Baku**
**2024**

Jurnal 01.03.2021-ci ildə
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin reyestrinə
daxil edilmişdir.
Reyestr № 4336

The journal is included
in the register of Press
editions of the Ministry
of Justice of the Republic
of Azerbaijan on
01.03.2021.
Registration № 4336

**Redaksiyanın ünvanı:**
Az1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
"Azərbaycan" nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address:**
Az1073, Baku,
Mətbuat Avenue, 529,
"Azerbaijan" Publish
House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 55 209 59 68
+994 99 807 67 68
+994 12 510 63 99

**e-mail:**
tedqiqat.rek@aem.az

## Beynəlxalq indekslər / International indices

**e-ISSN: 2789-6919**
**DOI: 10. 36719**

# TƏŞKİLAT KOMİTƏSİ

## Sədr

**Prof. Dr. Qəzənfər KAZIMOV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan

## Sədr müavinləri

**Mübariz HÜSEYİNOV,** “Elmi Tədqiqat” beynəlxalq onlayn elmi jurnalının baş redaktoru / Azərbaycan

## ÜZVLƏR

**Prof. Dr. Nərgiz AXUNDOVA**, AMEA Tarix İnstitutu / Azərbaycan
**Prof. Dr. Eldar QASIMOV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof.Dr. İlham ŞAHMURADOV**, AMEA Botanika İnstitutu / Azərbaycan
**Prof. Dr. İbadulla AĞAYEV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Yusif MƏMMƏDOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Rəşid CABBAROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Asiman QULİYEV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Dürdanə MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Rəşad HÜSEYNOV**, Xəzər Universiteti/ Azərbaycan
**Assoc. Prof. Dr. Afərin ABBASOVA**, Qərbi Kaspi Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şəfəq ABDULLAYEVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Zaman MƏMMƏDOV**, AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr.Qərənfil QULİYEVA**, Bakı Dövlət Universiteti/ Azərbaycan
**Assoc. Prof. Dr. Şikar ƏHMƏDOV**, Əkinçilik Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Mahir HACIYEV**, Heyvandarlıq Elmi-Tedqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Arif HÜSEYNOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr.Aytəkin AXUNDOVA,** Bakı Slavyan Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr.Şahlar BABAYEV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Dr. Asif MANAFOV**, AMEA Zoologiya İnstitutu / Azərbaycan
**Dr. Əli ZALOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Dr. Elçin HÜSEYN**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan

# THE ORGANİZİNG COMMİTTEE

## Chairman

**Prof. Dr. Gazanfar KAZIMOV**, Institute of Linguistics of ANAS / Azerbaijan

## Deputy chairmen

**Mubariz HUSEYINOV:** Editor-in chief of the international scientific journal "Scientific research" / Azerbaijan

## MEMBERS

**Prof. Dr. Nargiz AKHUNDOVA**, Institute of History of ANAS / Azerbaijan
**Prof. Dr. Eldar GASIMOV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof.Dr. Ilham SHAHMURADOV**, Institute of Botany of ANAS / Azerbaijan
**Prof. Dr. Ibadulla AGAYEV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Yusif MAMMADOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Rashid JABBAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Asiman GULIYEV,** Azerbaijan State University of Economics / Azerbaijan
**Assoc. Prof. Dr. Durdana MAMMADOVA,** Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Rashad HUSEYNOV**, Khazar University / Azerbaijan
**Assoc. Prof. Dr. Aferin ABBASOVA,** Western Caspian University / Azerbaijan
**Assoc. Prof. Dr. Shefeg ABDULLAYEVA**, Azerbaijan Universty of Language / Azerbaijan
**Assoc. Prof. Dr. Zaman MƏMMƏDOV**, Institute of Soil Science and Agro Chemstry of ANAS / Azerbaijan
**Assoc. Prof. Dr.Garanfil GULİYEVA,** Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Shikar AHMADOV**, Agricultural Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Mahir HAJIYEV**, Cattle-breeding Scientific research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Arif HUSEYNOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Aytekin AKHUNDOVA**, Baku Slavic University / Azerbaijan
**Assoc. Prof. Dr. Shahlar BABAYEV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Dr. Asif MANAFOV**, Institute of Zoology of ANAS / Azerbaijan
**Dr. Ali ZALOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Dr. Elchin HUSEYN**, Azerbaijan State University of Oil and Industry / Azerbaijan

III Respublika Elmi Konfransı / 12 yanvar 2024 / 5-8
III Republican Scientific Conference / 12 january 2024 / 5-8
DOI: https://doi.org/10.36719/2663-4619/2024/III

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

## HUMANITIES AND SOCIAL SCIENCES

**Nuranə Nuriyeva**
Azərbaycan Dillər Universiteti
filologiya üzrə fəlsəfə doktoru
nurananuri@mail.ru

# VAŞİNQTON İRVİNQ YARADICILIĞINDA ORİENTALİST TƏMAYÜLLƏR

***Açar sözlər:*** *orientalizm, şərq, qərb, V.İrvinq, Amerika ədəbiyyatı*
***Keywords:*** *orientalism, east, west, W.Irving, American literature*

Amerika orientalizmi akademik sahə, mədəni təmsilçilik forması və güc diskursu kimi Birləşmiş Ştatlarda XIX yüzilliyin əvvəllərindən başlayır. Orientalizmdə irq və din məsələləri amerikalıların Şərq və Qərb arasında əsas fərq olaraq gördükləri kateqoriyalar kimi fəaliyyət göstərirdi. Edvard Saidə görə orientalizm mahiyyət etibarilə hegemon bir diskursdur (Said, 1979: 364). Hakim dünya güclərinə xidmət edən Qərbin Şərq mədəniyyətləri üzərində üstünlüyü ilə bağlı bu essensialist fərziyyələr ədəbiyyat, tədqiqat və danışıqlar da daxil olmaqla, bütün diskurs formalarında, həm onların gücü baxımından, həm də onları davam və inkişaf etdirmək məqsədilə təzahür edir.

XIX yüzillikdə Şərq və Qərb mədəniyyətlərinin düşüncə tərzi arasında əlaqə yaratmaq cəhdləri geniş vüsət almışdı. Lakin bu işi görmək üçün hər iki mədəniyyətə dərindən bələd olmaq lazım idi. Bu məqsədlə də XVIII-XIX əsrlərdə

DOI: https://doi.org/10.36719/2663-4619/2024/III

Avropada orta əsrlər İslam mədəniyyətinin öyrənilməsi yalnız latın mənbələri əsasında deyil, bilavasitə ərəb mənbələrinə istinadla və o vaxtın İslam ölkələrində klassik Şərqin qalıqlarının əyani surətdə araşdırılması yolu ilə həyata keçirilməyə başladı. Qərb dünyasının Şərqi öyrənmək cəhdləri, onların Şərq ölkələrinə səfərlər etməsi, müvafiq dillərin və adət-ənənələrin öyrənilməsi orientalizm deyilən xüsusi bir tədqiqat sahəsinin formalaşmasına gətirib çıxardı. Məhz bu ərəfələrdə Şərqi, İspaniyadakı Əndəlüs mədəniyyətini onun fəlsəfəsini, insanlığını, mistisizmin içindəki həyatı amerikalı yazıçı Vaşinqton İrvinq kəşf edir. İordaniya Haşimi Universitetinin Amerika Ədəbiyyatı və Mədəniyyəti üzrə professoru Mərvan M. Obeidat "Amerika ədəbiyyatı və Orientalizm" (*American Literature and Orientalism*, 1998) adlı kitabında Müsəlman Dünyası və ya Yaxın Şərqin XIX əsrin ortalarından bu günə qədər bir sıra Amerika ədəbi mətnlərində necə təmsil olunduğu (yaxud yanlış təqdim edildiyi) məsələsini araşdırmışdır. Bu araşdırmada müəllifin əsas məqsədi Müsəlman Dünyası haqqında "ənənəvi qərəz və yanlış məlumatları" ifşa etmək olmuşdur. Kitabın birinci fəslindən məlum olur ki, amerikalıların əksəriyyətinin müsəlman şərqinə yanaşması qərəzlidir (Obeidat, 1998: 34). Kitabın ikinci fəslində isə müəllif Amerika ədəbiyyatının atası hesab olunan Vaşinqton İrvinqi İslama münasibətdə "dayaz və təhrif olunmuş" yanaşmasına görə tənqid edir (Obeidat, 1998: 63). Bu yanaşmalarda həqiqət payı olduğu qədər kəskin tənqid də göz qabağındadır.

Belə ki, Vaşinqton İrvinq romantik "Əlhəmra" (Alhambra,1832) adlı hekayələr toplusunda bir tərəfdən hiss və əqlin, digər tərəfdən Şərq ilə Qərb düşüncə tərzlərinin vəhdət məqamlarını üzə çıxararaq, bəşəriyyətin məhz bu vəhdətə doğru inkişaf etmək əzmini təsbit etmişdir. O, öz yaradıcılığında mistik ruhla fəlsəfi düşüncənin, Şərq və Qərb

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/III**

mədəniyyəti arasındakı müqayisəli təhlilini vermişdir. Dünyanın əzəli, həqiqi səbəbini açıb göstərmək iqtidarında olan yazıçı öz siyasi dünyagörüşünün da mühüm rol oynadığı dəqiq tarixi faktları rəvayətlərlə birləşdirərək özünəməxsus nağılvari yarıgerçək, yarımistik novellalar silsiləsi yaratmışdır (Filshtinskiy, 1979: 13). Qeyd edək ki, romantizm bu mütləq dünyaya necə yüksəlməyin yollarını araşdırmır, o, sadəcə bu yolu yaradıcı vüsətin iri addımlarla, bəzən də söz sənətinin qanadları üzərində qət edir. Yazıçı bu mütləq dünyada bərqərar olan ideallar içərisində hansının daha ilkin və daha universal olduğunu aydınlaşdırmağın yolunun romantik yaradıcılığın deyil, tənqidin və fəlsəfənin işi olduğunu da bilir.

Vaşinqton İrvinqin "Nyu-Yorkun tarixi" (A History of New York, 1809) əsərini incələdikdə müsəlman ölkələrinin mədəniyyət tarixini yaxından və diqqətlə öyrəndiyi bəlli olur. Onun müxtəlif tarixi hadisələr və şəxsiyyətlər haqqındakı mülahizələrini nəzərdən keçirdikdə aydın olur ki, yazıçı Şərq mədəniyyətini öz ölkəsində tanıtmaqla barabər bəşəriyyətin inkişafının müəyyən mərhələsində təkcə Qərbi Avropa xalqlarının deyil, Şərq xalqlarının da önəmli rol oynadığını vurğulayır (Irving, 2008: 370). Nyu-Yorkun tarixini yazarkən Vaşinqton İrvinq tez-tez digər ölkələrin (əsasən Şərq) tarixindən nümunələr gətirir. Yazıçı təqdim etdiyi bu və ya digər fikri daha artıq təsbitləşdirmək məqsədilə yeri gəldikcə qədim tarixə müraciət edir. Bu baxımdan sözügedən əsər nəinki "Nyu-Yorkun tarixi"ni, ümumilikdə dünya tarixini öyrənmək baxımından dəyərlidir. Məşhur Amerika ədəbiyyatşünası V.A. Parrinqton da təsdiq edir ki, "Nikerboker tərəfindən yazılan "Tarix" onun ən qabiliyyətli və məşhur əsərlərindən biridir" (Parrington, 1927: 47).

Vaşinqton İrvinqin Şərq mövzusunda qələmə aldığı əsərlər sırasında "Məhəmməd və Onun Ardıcılları" (Mahomet and His Successors, 1849-50) da əhəmiyyətli yer tutur. Əsasən

DOI: https://doi.org/10.36719/2663-4619/2024/III

kompelyativ səciyyə daşıyan bu əsər tarixi və bədii səpginin özünəməxsus sintezi kimi ortaya çıxmışdır. Vaşinqton İrvinqin Şərqin mənəvi-mədəni həyatına, eləcə də tarix və etnoqrafiyasına, dini etiqad və inanclarına dərindən bələdliyi bu əsərində də özünü göstərir. Məsələn, Şərqdə bütpərəstliyin, atəşpərəstliyin İslamaqədərki inanış sistemində oynadığı tarixi rol barədə onun bilgi və mülahizələri qətiyyən səthi və bəsit təsəvvür daşımır (Irving, 1970: 594). Vaşinqton İrvinq Şərqlə bağlı əsərlərində Şərqin memarlıqdan tutmuş incəsənət və ədəbi həyatına qədər ən müxtəlif mədəni-mənəvi yönlərinə diqqət yetirmiş, şübhəsiz ki, mövzunun xarakter və səciyyəsinə uyğun olaraq daha çox tarixi koloriti inikas etdirməyə meyl göstərmiş və buna nail olmağın əsl sənətkarlıq örnəklərini qoymuşdur.

## Ədəbiyyat

1. Said, E. (1979). Orientalism. New York: Vintage Books, p.364.
2. Obeidat, M. (1998). American Literature and Orientalism, Publisher K. Schwarz, 147 p.
3. Filshtinskiy, I. M. (1979). Andalusiya v izobrazhenii Vashingtona Irvinga. V kn.: Vashington Irving. Algambra. — M.: Nauka, Glavnaya red. vost. lit-ry, s.13.
4. Irving, W. A. (2008). History of New York, Penguin Classics, 370 p.
5. Parrington, V. L. (1927). Main currents in American thought: an interpretation of American literature from the beginnings to 1920 / 2. The romantic revolution in America 1800-1860, New York: Harcourt, Brace. p.47.
6. Irving, W. (1970). History of Mahomet and His Successors, London: J. Murray, (1849–1850), University of Wisconsin Press, 594 p.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/III

**Gulnaz Hasanova**
Baku State University
PhD student
gulnazhasanova1016@gmail.com

# CONTEMPORARY MASS MEDIA IN THE NEW STAGE OF INTERNATIONAL RELATIONS

***Açar sözlər***: *qloballaşma, rəqəmsal diplomatiya, informasiya müharibəsi, ictimai diplomatiya, media təsiri, beynəlxalq siyasət, mədəni mübadilə, kibersiyasət, transmilli kommunikasiya, yumşaq güc*

***Keywords***: *globalization, digital diplomacy, information warfare, public diplomacy, media influence, international policy, cultural exchange, cyber politics, transnational communication, soft power*

In the era of digitization and globalization, the role of mass media in international relations extends far beyond traditional news reporting. As digital platforms proliferate, the global information environment has become a complex web of interconnections, where the actions and policies of nations are not only reported but also shaped by the media narrative. This narrative is driven by a vast array of actors, including state-run outlets, private media corporations, individual journalists, and even the public via social media platforms.

The influence of mass media in this context is multifaceted. It serves as a tool for soft power, allowing states to project their values and influence abroad. It also acts as a battlefield for information warfare, where states and non-state actors engage in the dissemination of propaganda and counterpropaganda. Furthermore, media's role in agenda-setting means that it can focus attention on specific

DOI: https://doi.org/10.36719/2663-4619/2024/III

international issues or crises, thereby influencing the priorities and responses of governments and international bodies.

However, the rapid spread of digital media also brings challenges of information overload, echo chambers, and the blurring of lines between credible journalism and misinformation. The democratization of content creation means anyone can publish information, leading to a crowded and sometimes chaotic media landscape. As a result, discerning truth from falsehood becomes more difficult, complicating international diplomacy and policymaking.

Moreover, the rise of transnational media networks has diminished the control of individual states over information, leading to more pluralistic but also more fragmented public spheres. This has implications for national identity, cultural exchange, and the ability of states to maintain consensus and stability.

In summary, as the world becomes increasingly interconnected, the influence of mass media on international relations grows ever more significant. Understanding this complex relationship is crucial for policymakers, diplomats, and anyone interested in the future of international affairs. The media's role as a conduit of information, a tool of influence, and a space for dialogue and conflict reflects the multifaceted nature of contemporary global interactions, requiring a nuanced approach to both media consumption and international engagement.

III Respublika Elmi Konfransı / 12 yanvar 2024 / 11-14
III Republican Scientific Conference / 12 january 2024 / 11-14
DOI: https://doi.org/10.36719/2663-4619/2024/III

**Vaqif Dadaşzadə**
Milli Müdafiə Universiteti
Hərbi Elmi-Tədqiqat İnstitutu
doktorant
vaqif.d@bsu.edu.az

# DÖVLƏTİN İNFORMASİYA SİYASƏTİNDƏ İNFORMASİYA MÜHARİBƏSİ

***Açar sözlər:*** *informasiya müharibəsi, kütləvi informasiya vasitələri, informasiya siyasəti, "yumşaq güc", informasiya təhlükəsizliyi*
***Keywords:*** *information warfare, mass media, information policy, "soft power", information security*

Müasir dünyada informasiyanın dəyəri o qədər artmışdır ki, o, artıq strateji milli nemətə çevrilmişdir. Hətta təbii resursların əhəmiyyəti tədricən bu dəyərin kölgəsində qalır. Dünyanın aparıcı ölkələri maddi kapital və fiziki əməkdən çox intellektual kapital və əməyə üstünlük verirlər. Bu informasiyanı manipulyasiya edən kompüterlər isə birinci dərəcəli hədəflər hesab olunur. Trilyon dollarlıq dəyərə malik iqtisadiyyatlar sadəcə bir neçə milyonluq, hətta bəzən bir neçə yüz minlik kompüterlər şəbəkəsindən və peyk rabitəsindən asılı olur. Belə infrastrukturun informasiya təhlükəsizliyinin təmin edilməsi və qorunması hazırda əsas təhlükəsizlik vəzifələrindən hesab olunur (Piriyev, Tahirov, İskəndərov, 2022: 168). Belə şəraitdə informasiya müharibəsi dövlətin informasiya siyasətinin vacib aspekti kimi çıxış edir, bu sahədə qurumlararası əməkdaşlığın rolu ön plana çəkilir.

İnformasiya müharibəsi rəqib tərəf üzərində informasiya üstünlüyü qazanmaq üçün aparılan əməliyyatların məcmusudur. Onun məqsədi dövlətin informasiya məkanının

DOI: https://doi.org/10.36719/2663-4619/2024/III

idarə edilməsindən, öz məlumatlarına əlçatanlığı qorumaqdan, rəqibin məlumatlarını əldə etməkdən, onun informasiya sistemlərinin məhv edilməsindən və informasiya axınını pozmaqdan ibarətdir. İnformasiya müharibəsi yeni bir fenomen deyil, lakin texnologiyanın inkişafı ilə əlaqədar özündə innovativ elementləri ehtiva edir və nəticədə məlumat daha sürətlə və daha geniş miqyasda yayılır (Piriyev, Tahirov, İskəndərov, 2022: 168).

Kütləvi informasiya vasitələrindən tarixən müharibə əməliyyatlarının hazırlanması və aparılması prosesində dövlətlər tərəfindən istifadə edilmişdir (İskəndərov, 2021: 40-50). Əsrlər əvvəl Napoleon Bonapart tərəfindən irəli sürülmüş məşhur "Dörd düşmən qəzeti min süngüdən daha qorxuludur" ifadəsi müasir dövr qarşıdurmaları üçün də aktualdır (Bukhari, 2020). Qeyd etmək lazımdır ki, informasiya müharibələrinə bəşər tarixinin bütün dövrlərində rast gəlinmişdir. Məsələn, e.ə. V-IV əsrlərdə Çin hərbi strateqi Sun-Tzu ən yaxşı qələbənin döyüşsüz qazanılan qələbə olduğunu söyləmişdi (Kyrychok, 2017: 54-58). Bundan əlavə, Sun-Tzu "bütün müharibələrin aldatma olduğunu" qeyd edirdi (5). Çin tarixində qələbə qazanmaq üçün informasiya silahından istifadə edilməsinə dair bir çox nümunə vardır. İnformasiya manipulyasiyasının elementləri həm xarici düşmənlərə qarşı, həm də daxili şəxslərarası qarşıdurmalarda istifadə edilmişdir.

Qədim hökmdarlar düşməni döyüşsüz məğlub etməyə kömək edən "yumşaq güc"ün üç əsas elementini istifadə edirdilər: 1) vətəndaşlarının xeyrinə rasional hökumətin yaradılması; 2) düşmənə qarşı ağıllı və təsirli siyasətin yürüdülməsi; 3) informasiya silahları ilə birlikdə səmərəli hərbi əməliyyatlar strategiyasının həyata keçirilməsi. Siyasətə və hərbi işlərə dolayı təsir strategiyalarını sistemləşdirən ilk ölkə Çindir. Bu qaydaların hər birinə "stratagem" deyilirdi. Hər bir strategiya qısa bir ifadədən ibarət idi. Məsələn: *"Şərqdə səs-*

DOI: https://doi.org/10.36719/2663-4619/2024/III

*küy sal, Qərbə hücum et”* (Piriyev, Tahirov, İskəndərov, 2022: 168).

Yeni media dövlətin informasiya siyasəti və hərbi gücü üçün tutarlı vasitələr təqdim etməklə yanaşı, keçmiş metodlardan da istifadə edir. İnformasiya həm dövlət, həm də qeyri-dövlət aktorları üçün daha çox “silah” halına gəlmişdir. Müasir media istənilən mövzunu sürətlə yaymaq gücünə malikdir və qısa müddətdə müəyyən siyasi və ya hərbi məqsədlərə çatmaq üçün ictimaiyyətin fikir və davranışlarına təsir etmək və ya onları dəyişdirmək üçün təsirli vasitə kimi istifadə olunur (İskəndərov, 2021: 40-50).

İnformasiya müharibəsi ilə əlaqəli çoxsaylı qurumlar, səlahiyyətlər, imkan və qabiliyyətlər mövcuddur və bir çox qurumlar informasiya mühitinə təsir etmək üçün yollar axtarır. Lakin pərakəndə imkan və qabiliyyətlərin səmərəli istifadəsi üçün hərtərəfli mexanizm mövcud deyil (Gözəlov, İskəndərov, 2021: 45-52). İnformasiya texnologiyalarının sürətli inkişafı və informasiya təhlükəsizliyinin təmin edilməsinin vacibliyi informasiya müharibəsində qurumlararası əməkdaşlıq sahəsində islahatların aparılmasını şərtləndirir. Qeyd etmək lazımdır ki, informasiya müharibəsində milli təhlükəsizliyin bütün mümkün alətləri (diplomatiya, informasiya, hərb, iqtisadiyyat) dövlətin informasiya siyasəti çərçivəsində səfərbər edilməlidir.

Bu baxımdan qurumlararası əməkdaşlıqda yaranan boşluq belə bir mübarizədə uğursuzluğun əsas səbəblərindən ola bilər. Qurumlararası əməkdaşlığın təşkili informasiya müharibəsinin aparılması üçün maneələri aradan qaldırır, qurumların fəaliyyətini sinxronizə edir və dövlətin informasiya siyasəti çərçivəsində resurslardan optimal istifadəni stimullaşdırır.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/III

## Ədəbiyyat

1. Piriyev, H., Tahirov, R., İskəndərov, X. (2022). İkinci Qarabağ müharibəsi. Hərbi–siyasi təhlil. Bakı: Hərbi Nəşriyyat, s.168.
2. İskəndərov, X. (2021). Ermənistanın dezinformasiya kampaniyasında medianın yeri və rolu (İkinci Qarabağ Müharibəsinin nümunəsində). Hərbi Bilik, №3. s.40-50.
3. Bukhari, Sh. (2020). Hybrid warfare and the role of social media: [Electronic resource] – January 24, URL: https://bit.ly/3sfHMvC
4. Kyrychok, A.P. (2017). The history of the information warfare concept. Science and Education a New Dimension. Humanities and Social Sciences, Volume 21, Issue 130. p.54-58.
5. Mackey, R.R. (2014). Information Warfare: [Electronic resource] – March 27. URL:https://www.oxfordbibliographies.com/view/document/obo-9780199791279/obo-9780199791279-0024.xml
6. Gözəlov, R., İskəndərov, X. (2021). İnformasiya müharibəsində qurumlararası əməkdaşlıq əsas prioritet kimi. Milli Təhlükəsizlik və Hərbi Elmlər, №3 (7), s.45-52.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/III

**Ayşən Aslan-Məmmədli**
Bakı Dövlət Universiteti
ayshan.aslan@gmail.com

# MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN YARANMASI: SƏBƏBLƏRİ, GEOSİYASİ NƏTİCƏLƏRİ

***Açar sözlər:*** *Azərbaycan, Rusiya, Cənubi Qafqaz, müstəqillik aktları, postsovet məkanı, prioritet, ikitərəfli və çoxtərəfli əlaqələr, geostrategiya, milli təhlükəsizlik, tarazlıq siyasəti, qütbləşmə, xarici siyasət*

***Keywords:*** *Azerbaijan, Russia, South Caucasus, acts of independence, post-soviet space, priority, bilateral and multilateral relations, geostrategy, national security, balancing policy, polarization, foreign policy*

XX əsrin sonlarında dünyanın geosiyasi mənzərəsinin dəyişməsi dünya düzəninin yeni keyfiyyət halını şərtləndirməklə bipolyar dünyaya son verdi. Təsadüfi deyildi ki, Rusiya Federasiyasının prezidenti V.Putin SSRİ-nin dağılmasını "XX əsrin nəhəng geosiyasi fəlakəti" adlandırmışdı. Geosiyasi baxımdan Rusiya bir vaxtlar onun olmuş ərazinin 23,8 %-ni, əhalinin isə 48,5 %-ni itirmiş, keçmiş postsovet məkanı ölkələrində 25 mln. nəfərdən çox rusdilli vətəndaşı qalmışdı ki, tezliklə yerləşdikləri ölkələrdə Rusiyanın maraqlarının daşıyıcısına çevrilmişdilər. Hələ 1994-cü ilin yanvar ayında Rusiyanın xarici işlər naziri A.Kozırev bəyan etmişdi ki, rəsmi Moskvanın əsas strateji maraqlarından biri «yaxın xaricdə etnik rusların və rusdilli vətəndaşların taleyinə görə məsuliyyəti üzərinə götürməsidir».

Keçmiş sovet rəhbərləri SSRİ-ni saxlamağın qeyri-mümkünlüyünü gördükdən sonra onun yeni birliklə əvəz edilməsi üçün hazırlanmış müxtəlif ssenarilərin içərisindən

DOI: https://doi.org/10.36719/2663-4619/2024/III

Müstəqil Dövlətlər Birliyi (əvvəlcə "Suveren Dövlətlər İttifaqı" adlandırılmışdı) variantını seçmiş və qısa müddətə (Pribaltika dövlətləri istisna olmaqla) reallaşdırmağa nail olmuşdular. Azərbaycanlı müəlliflərdən İ.Musa yazırdı ki, SSRİ-nin dağılması prosesi və süqutu Rusiyanın müstəmləkələrinin öz dövlətçiliklərini bərpa etmələri ilə nəticələndi (bununla da postsovet geosiyasi məkanı anlayışı da yarandı), həmin məkanın əhatə etdiyi dövlətlərin aralarındakı münasibətlər məsələsi gündəmə gəldi. Azərbaycan Respublikası da postsovet məkanında bərqərar olan ölkə kimi bu dövlətlərarası münasibətlər sisteminin bir tərəfinə çevrildi.

Hazırda leksikonda vətəndaşlıq qazanmasına baxmayaraq "postsovet məkanı və ya MDB" anlayışları sonradan yeni anlayışla əvəz edilməyə başladı. Belə ki, 2008-ci ilin ortalarından etibarən Rusiya prezidentlərinin çıxışlarında və rəsmi sənədlərdə "Avrasiya məkanı" anlayışından istifadə edilməyə başladı ki, Rusiya KİV-ləri bu anlayışı daha cəzbedici və tutumlu hesab etdiklərinə görə ona yeni məzmun verməyə başlamışdılar. Rusiya elmi-nəzəri fikrinə görə Avrasiya məkanında dövlətlər iqtisadi və humanitar amallar ətrafında birləşməli, konkret sərhədləri olmayan bu məkana Rusiyanın nüfuz dairəsi kimi baxılmalıdır.

Qeyd edək ki, ötən əsrin 20-ci illərində Rusiyada kifayət qədər məşhur olan və dəstəklənən "avrasiyaçılıq nəzəriyyəsi" mədəni və mənəvi dəyərləri önə çəkərək Avrasiyada yaşayan xalqları və millətləri Rusiyadan bəhrələnməyə çağırırdı, çünki bu nəzəriyyənin tərəfdarları rus mentalitetinin üstünlüyünə əsaslanan baxışları yayırdılar. Təsadüfi deyildi ki, Qərb geosiyasi fikrinin nümayəndələri slavyan təhlükəsini müasir sivilizasiyanı hədələyən başlıca təhdidlərin sırasına daxil edərək ona qarşı mübarizəni önə çəkirdilər.

Müstəqil Dövlətlər Birliyinin 1991-ci il dekabrın 8-də Belovejsk sazişinə əsasən təsis edilmiş, sazişi Rusiya, Belarus

DOI: https://doi.org/10.36719/2663-4619/2024/III

və Ukrayna prezidentləri imzalamış, dekabrın 21-də Qazaxıstanın paytaxtı Alma-Ata şəhərində postsovet məkanının 11 dövlətinin (Gürcüstan və Baltikyanı ölkələr istisna olmaqla) rəhbərləri Müstəqil Dövlətlər Birliyinin yaradılması haqqında Protokol və Bəyannaməni imzalamışdılar. MDB dövlət başçılarının sonrakı görüşlərinin gedişində birliyin Nizamnaməsi hazırlanmış və qəbul edilmişdi.

MDB-nin yaradılması və keçmiş ittifaq respublikalarından 11-nin ona daxil olması, birliyin 45 maddədən ibarət Nizamnaməsinin qəbulu 90-cı illərin əvvəllərində yaranmış qeyri-müəyyənliyi və xaosu tam şəkildə aradan qaldırmasa da, bir sıra məsələlərə aydınlıq gətirdi. Qeyd edək ki, o dövrkü KİV bir çox hallarda "MDB elə Rusiyadır" tezisindən çıxış edirdi ki, bu da yenicə müstəqillik əldə etmiş dövlətləri, o cümlədən də Azərbaycan rəhbərliyini ehtiyatlı olmağa vadar edirdi.

Təsadüfi deyildi ki, Ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışına qədər taleyin Azərbaycan və Rusiyanı qonşu etməsinə baxmayaraq Azərbaycan MDB-yə qoşulmaqdan imtina etmişdi.

Postsovet məkanının bir hissəsi kimi Azərbaycan Respublikası da MDB dövlətləri ilə çoxşaxəli əlaqələrə malik idi və yeni yaranmış vəziyyətə uyğun strateji xəttin hazırlanıb həyata keçirilməsi tələb olunurdu, çünki siyasi müstəqilliyin iqtisadi bazası hər hansı dövlətin mövcudluğu məsələsi idi. Müstəqilliyin elan edilməsindən sonrakı ilk illərdə hakimiyyətdə olan AXC hökumətinin bu sahədə konkret fəaliyyət proqramı mövcud deyildi. MDB məkanının digər dövlətlərinin, o cümlədən də Rusiyanın konkret strategiyasının mövcud olmaması dünya diplomatiyasının diqqətini bu nəhəng məkana yönəltmişdi. Belə vəziyyət Rusiyada B.Yeltsinin prezidentliyinin sonunadək davam etmişdi.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/III

Qeyd edək ki, Rusiya Federasiyasının 1993-cü ilin aprelində təsdiq edilmiş xarici siyasət konsepsiyasının əsas müddəaları işərisində postsovet məkanının bütövlüyünün dəstəklənməsinə xüsusi diqqəti ayrılırdı. Rusiyanın prioritet olaraq hərbi, siyasi və iqtisadi maraqlarının təmin edilməsi məqsədilə MDB ölkələri ilə davamlı qarşılıqlı münasibətlərin qaydaya salınması bir tərəfdən onun böyük dünya dövləti kimi mövqelərinin saxlanması vəzifəsinə xidmət edirdisə, digər tərəfdən Rusiyanın xarici siyasətinin konseptual əsaslarını müəyyənləşdirirdi.

Fikrimizcə, MDB-nin yaradılması o tarixi zərurətdən doğurdu ki, onun yaradılması yolu ilə Rusiyanın beynəlxalq aləmdə itirilmiş mövqelərinin geri qaytarılmasına nail olmağa çalışılırdı. Çünki SSRİ-nin süqutundan sonra Qərb dövlətlərinin bütün istiqamətlərdən Rusiyaya ekspansiyasının əngəllənməsinə Rusiyanın təkbaşına müqaviməti ürəkaçan heç nə vəd etmirdi. S.A.Qaraşovanın qeyd etdiyi kimi, “zəif Rusiya SSRİ-nin süqutunun ilk illərində dünyada cərəyan edən proseslərə demək olar ki, ümumiyyətlə, müdaxilə etmək imkanlarına malik deyildi. Bu baxımdan hesab etmək olar ki, SSRİ-nin süqutu hər şeydən öncə kapitalizmə dünyanın beynəlxalq arenasında tam sərbəst fəaliyyət imkanları qazandırdı”. Təsadüfi deyildi ki, Rusiyanın dövlət və siyasi xadimlərindən S.N.Baburin Rusiyanın mövcud beynəlxalq vəziyyətini səciyyələndirərək ilk növbədə MDB məkanında fəallaşmasını əsas götürməklə birliyi möhkəmləndirməyə çağırmış və birlikdə NATO və Aİ-nin ekspansiyasına qarşı mübarizənin uğurlu olacağını qeyd etmişdi. Onun çağrışında yer almış Cənubi Qafqaz və Mərkəzi Asiyaya münasibətlə bağlı məqamlar göstərilən regionların hakimiyyət elitalarına bir növ xatırlatma xarakteri daşıyırdı.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/III

# TƏBİƏT ELMLƏRİ

# NATURAL SCIENCES

**Sədaqət Camıyeva**
Azərbaycan Respublikası KTN Əkinçilik ET İnstitutu
doktorant
cemiyev1961@mail.ru
UOT633.631

## AT PAXLASI (VİCİA FABA L.) SORTNÜMUNƏLƏRİNİN MORFOLOJİ GÖSTƏRİCİLƏRİNİN ABŞERON SUVARMA ŞƏRAİTİNDƏ TƏDQİQİ

***Açar sözlər:*** *at paxlası, introduksiya, seleksiya, biometrik göstəricilər,beynəlxalq*

***Keywords:*** *horse bean, introduction, breeding, biometric parameters, internotional*

Qlobal əhali artımı və iqlim dəyişikliyi səbəbindən kənd təsərrüfatı dəyişikliklərə məruz qalır. At paxlası zəngin vitamin və mineral mənbəyi və az yağlılığı ilə seçilən və insan orqanizmi tərəfindən yaxşı mənimsənilən alternativ zülal mənbəyidir. Paxlalı bitkilərə əsaslanan protein bazarı əsasən soya (Glycine max L.) və noxuddan (Pisum sativum L.) ibarətdir. Mərcimək, noxud və lobya kimi paxlalı bitkilər qida, iqtisadi və ekoloji cəhətdən əsaslı faydalarına görə böyük maraq doğurur. At paxlası (Vicia faba L.) toxumlarında təxminən 29% protein var. Həm insan, həm də heyvan qidası üçün yetişdirilir. Yüksək məhsuldarlıq potensialını və misilsiz azot fiksasiya qabiliyyətini nəzərə alaraq, at paxlası kənd təsərrüfatı istehsal sistemlərinin davamlılığını qorumaqla artan

DOI: https://doi.org/10.36719/2663-4619/2024/III

insan əhalisinin qida ehtiyaclarını ödəmək üçün böyük potensiala malikdir. Dünya üzrə faba lobya istehsalı (5,7 milyon ton) hazırda soya (353 milyon ton) və noxud (14,6 milyon ton) ilə müqayisədə azdır. Faba paxlasının aqronomik, qidalanma və sağlamlıq faydaları vardır. Bu da gələcəkdə istehsalın artımına təkan verə bilər. Odur ki, faba paxlası növbəli əkinçilikdə, aralıq əkinlərdə (torpağı zənginləşdirmək üçün) və digər bitkilərin, məsələn, arpa və buğda məhsuldarlığını artırmaq üçün istifadə edilə bilər.

**Nəticələr və onların müzakirəsi.**

**FBİABN** - askoxitoz xəstəliyinə davamlı pitomnikə aid nümunələrindən məhsuldarlıq göstəricilərinə görə st. VİFA-2-93-lə müqayisədə (466q/m$^2$),İKARDA dan introduksiya olunmuş sortnümunələrdən ASCOT(500q/m$^2$), FLİP17-029(468q/m$^2$), FLİP17-035FB (503 q/m$^2$), Rebeya 40 (525 q/m$^2$), FLİP16-199 (493 q/m$^2$ ), FLİP17-059FB(493 q/m$^2$ ) ən yüksək göstəriciyə malik olmuşdur.

St.VİFA2-93-də vegetasiya müddəti 216-gün, məhsuldarlıq göstərici 4466 q/m$^2$, 100 dənin kütləsi 118 q, bitkinin boyu 75 sm, paxlada dənin sayı 3 ədəd, 1-ci paxlaya qədər hündürlük 35 sm, məhsuldar budaq 5 ədəd, paxlanın eni 1,0-1,5sm, uzunu isə 9,0-9,4 sm intervalında olmuşdur. ICARDA-dan alınmış FBİCSN-18 pitomnikinə aid sortnümunələrində vegetasiya müddəti 210-217 gün, məhsuldarlıq 468-525 q/m$^2$, 100 dənin kütləsi 78 -104 q, bitkilərin boyu 70-87 sm, 1-ci paxlaya qədər hündürlük 25-35 sm, məhsuldar budaq 3-5 ədəd, paxlada dənin sayı 3-4 ədəd, paxlanın eni 11-14 mm, uzunu isə 8,2-9,7 sm intervalında dəyişmişdir.

**FBİCSN** - Qəhvəyi ləkəli xəstəliyinə davamlı pitomnikə aid nümunələrindən məhsuldarlıq göstəricilərinə görə st. VİFA2-93-lə (353q/m$^2$) müqayisədə 8 sortnümunə: Rebeya40(475 q/m$^2$), FLİP16-201(375q/m$^2$), FLIP17-040FB(393q/m$^2$), İKARUS(356q/m$^2$), FLİP17-

DOI: https://doi.org/10.36719/2663-4619/2024/III

032FB(384q/$m^2$), FLİP16-215(364q/$m^2$), FLİP17-043FB(366q/$m^2$), FLIP17-035FB (297q/$m^2$) ən yüksək göstəriciyə malik olmuşdur. St.VİFA2-93-də vegetasiya müddəti 217 gün məhsuldarlıq göstərici 353q/$m^2$, 100 dənin kütləsi 122 q, bitkinin boyu 60 sm, paxlada dənin sayı 3 ədəd, 1-ci paxlaya qədər hündürlük 20 sm, məhsuldar budaq 4 ədəd, paxlanın eni 10 mm, uzunu 8,5 sm olmuşdur. ICARDA-dan alınmış sortnümunələrində vegetasiya müddəti 210-217 gün, məhsuldarlıq 364-475q/$m^2$, 100 dənin kütləsi 71-102 q, bitkilərin boyu 52-66 sm, 1-ci paxlaya qədər hündürlük 16-28 sm, məhsuldar budaq 3-4 ədəd, paxlada dənin say 3 ədəd, paxlanın eni 10-14 mm, uzunu isə 6,4-9,0 sm intervalında dəyişmişdir.

**FBİMHN -** Mexaniki yığıma yararlığa davamlı pitomnikə aid nümunələrindən məhsuldarlıq göstəricilərinə görə st. VİFA2-93-dən (199q/$m^2$) müqayisədə Elizar(219q/$m^2$), FLİP16-205(260q/$m^2$), FLIP16-210(254q/$m^2$), FLIP16-217(330 q/$m^2$ ), FLIP16-214 (275 q/$m^2$), FLIP16-216 (399 q/$m^2$), FLİP17-055FB (263 q/$m^2$), FLIP16-206 (286 q/$m^2$), FLIP16-213 (209 q/$m^2$), sortnümunələri ən yüksək göstəriciyə malik olmuşdur.

St.VİFA2-93-də vegetasiya müddəti 217 gün, məhsuldarlıq göstərici 199q/$m^2$, 100 dənin kütləsi 95 q, bitkinin boyu 41 sm, paxlada dənin sayı 3 ədəd, 1-ci paxlaya qədər hündürlük 15 sm, məhsuldar budaq 4 ədəd, paxlanın eni 1,0 sm, uzunu isə 6,8 sm olmuşdur. ICARDA-dan alınmış sortnümunələrində vegetasiya müddəti 210-217 gün, məhsuldarlıq 90-399 q/$m^2$,100 dənin kütləsi 64-122 q, bitkilərin boyu 31-63 sm, 1-ci paxlaya qədər hündürlük 10-27 sm, məhsuldar budaq 3-4 ədəd, paxlada dənin say 6-34 ədəd, paxlanın eni 1,0-1,5 sm, uzunu isə 6,2-9,3 sm intervalında dəyişmişdir.

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/III**

**Sədaqət Camıyeva**
Azərbaycan Respublikası KTN Əkinçilik ET İnstitutu
doktorant
cemiyev1961@mail.ru
UOT633.631

# BİOLOJİ MÜXTƏLİFLİYİN ƏSAS ASPEKTLƏRİ VƏ QİDALANMADA AT PAXLASININ (VİCİA FABA L.) ROLU

***Açar sözlər**: beynəlxalq, biomüxtəliflik, bitki, heyvan, at paxlası*

***Keywords:** international, biodiversity, plant, animal ,Vicia faba L*

Müasir dövrdə dünya əhalisinin sürətli artımı və təbiətdə baş verən qlobal iqlim dəyişiklikliyi öz növbəsində kənd təsərrüfatının inkişafına, eləcə də biomüxtəlifliyin dayanıqlı qorunmasına öz mənfi təsirini göstərməkdədir (Willett, Rockström, Loken, Springmann, Lang, Vermeulen, Garnett, Tilman, DeClerck, Wood, et al, 2019: 393, 447–492). BMT 22 may tarixini "Beynəlxalq biomüxtəliflik günü" kimi elan etmişdir. Odur ki, 2010-cu ildən etibarən hər il dünyada 22 may tarixi "Beynəlxalq biomüxtəliflik günü" kimi qeyd edilir. Bu da biomüxtəliflik anlayışı haqqında məlumatların daha geniş yayılması və ictimaiyyətə təqdim edilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Bu baxımdan Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Almaniya Əməkdaşlıq Cəmiyyəti (GTZ) ilə birgə əməkdaşlıqda Biomüxtəlifliyin idarə olunması proqramına qoşulması ölkə əhalisinin, o cümlədən şagirdlərin ekoloji tərbiyəsində və maarifləndirmə işlərində muhum rol oynamışdır. BMT-nin 1992-ci ildə Braziliyanın Rio de Janeyro şəhərində "Ətraf mühit və inkişaf"a dair keçirdiyi

DOI: https://doi.org/10.36719/2663-4619/2024/III

konfransda baş tutan "Yer Sammiti"ndə Biomüxtəliflik uzrə konvensiya imzalanmışdır. Bu konvensiya Azərbaycan da daxil olmaqla 187 ölkə tərəfindən ratifikasiya olunmuşdur.

Bu ölkələr özlərini biomüxtəlifliyin qorunmasında, onun davamlı olaraq istifadəsində və genetik ehtiyatların bərabər şəkildə paylanmasında "məsul elan" etmişlər. Biomüxtəlifliyin qorunması Azərbaycanda ekoloji siyasətin əsas hədəflərindən biridir.

Biomüxtəliflik yer üzərindəki bütün canlılar arasındakı fərqlilikdir. Hal-hazırda Yer kürəsində biomüxtəliflik milyonlarla növ canlıdan ibarətdir. Biomüxtəliflik adətən bioloji sistemlərin sağlamlıq ölçüsü kimi istifadə olunur. Azərbaycan biomüxtəliflik cəhətdən zəngin ölkədir. Ölkəmizdə 7 müxtəlif ekosistem kompleksi mövcuddur.

Bu ekosistemlərdə Qafqaz regionu üçün endemik olan növlər də daxil olmaqla bir çox heyvan və bitki növləri yaşayır. Xəzər dənizində də bir çox endemik, iqtisadi cəhətdən əhəmiyyətli və nərələr kimi yox olmaq üzrə olan nadir balıq növləri, eləcə də Xəzər suitisinin dünya üçün əhəmiyyətli populyasiyası yaşayır. Ümumiyyətlə, hazırda Azərbaycan Respublikasının ərazisində 4500 növə kimi ali bitkilər qeydə alınmışdır ki, bu da Qafqazın növ tərkibinin 64%-ni təşkil edir. Ölkədə rast gəlinən 600 növ endemik bitkilərdən 168-i Azərbaycan, 432-si Qafqaz florasına aiddir.

İnsanlar bitkilərdən həm qida, həm də xəstəlik əleyhinə dərman vasitəsi kimi istifadə edir. Xüsusilə, təbiət insanların yaşayışı üçün əsas gəlir mənbəyinə çevrilmişdir. Eləcə də meşələr vasitəsilə eroziyanın qarşısı alınır, su-bataqlıq sahələri vasitəsilə sular təmizlənir, bataqlıqlar vasitəsilə karbon qazı izolə edilir. BMT-nin İnkişaf Proqramının apardığı araşdırmalara əsasən bu ekoloji xidmətlərin əvəz edilməsi zamanı 3,5 trilyon ABŞ dolları dəyərində xərc tələb olunur. Deməli, biomüxtəlifliyin qorunması iqtisadi cəhətdən də

DOI: https://doi.org/10.36719/2663-4619/2024/III

olduqca zəruridir. Biomüxtəlifliyin qorunması eyni zamanda məsuliyyət tələb edir. İnsanların məsuliyyətsizliyi səbəbindən bir çox canlılar məhv olmusdur, bunların təkrarlanmaması üçün isə adekvat ciddi tədbirlərin görülməsi tələb olunur. Bu baxımdan biomüxtəlifliyin davamlı və səmərəli idarə olunmasında müəllimlər şagirdlərə biomüxtəlifliyin qorunmasındakı rolunu və vəzifələrini, onların da təbiətin bir parçası olduğunu izah etməlidirlər.

Quraqlıq və şoranlıq problemi həm təbii, həm də antropogen amillərin təsirindən daha da dərinləşməkdədir. Quraqlıq bitkilərin məhsuldarlığını məhdudlaşdıran əsas ekoloji amillərdən hesab olunur. Quraqlığa davamlı genotiplərin seçilməsi və quraqlığa tolerantlıq mexanizmlərin aydınlaşdırılması hazırda tədqiqatçılar qarşısında duran və həlli vacib olan başlıca vəzifələrdən biridir. Ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində dünya ölkələrində məqsədyönlü tədbirlər həyata keçirilməkdədir. Bu baxımdan tədqiqatçılar qida əhəmiyyətli kənd təsərrüfatı bitki sortlarının yaradılması istiqamətində seleksiya işlərini davam etdirməkdədirlər. Əsasən insanların qida rasionuna daxil olan at paxlası (Vicia faba L.) bitkisi üzərində tədqiqat işlərinin aparılması böyük praktiki əhəmiyyət kəsb edir. Bu gün mərcimək, noxud və at paxlası bitkiləri iqtisadi və ekoloji cəhətdən əsaslı faydalarına görə böyük maraq doğurur (Duc, Aleksić, Marget, Mikic, Paull, Redden, Sass, Stoddard, Vandenberg, Vishnyakova, Torres, 2015: 141-178). At paxlasının dənində 29% protein vardır (Warsame, O’Sullivan, Tosi, 2018: 66, 12617-12626). O, həm insan, həm də heyvan qidası üçün yetişdirilir (Duc, Aleksić, Marget, Mikic, Paull, Redden, Sass, Stoddard, Vandenberg, Vishnyakova, Torres, 2015: 141-178; Multari, Stewart, Russell, 2015: 14, 511-522).Yuxarıda qeyd edilənlərin zəruriliyini nəzərə alaraq tədqiqatlarda ICARDA Beynəlxalq seleksiya mərkəzindən

DOI: https://doi.org/10.36719/2663-4619/2024/III

introduksiya olunan 234 at paxlası sortnümunələrinin təsərrüfat göstəricilərinə görə qiymətləndirilmiş və perspektivli hesab olunan bir sort "Şirvanşah" adı altında rayonlaşmaya və patent almaq üçün Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Xidmətlər Agentliyinə təqdim edilmişdir. Hazırda sınaqları davam etdirilməkdədir. Ərzaq paxlalıları müasir dövrdə prioritet bitkilərdən hesab olunaraq əhalinin gündəlik zülala olan tələbatının ödənilməsində əsas alternativ qida mənbəyi rolunu oynayır. Belə ki, hazırda bir çox insanlar öz gündəlik qida rasionunda daha çox bitki mənşəli zülala üstünlük verirlər. Burada dənli-paxlalı bitkilər daha çox üstünlük təşkil edirlər. Bu cəhətdən at paxlası bitkisi zülalla zəngin olan və aqrar sahədə daha ucuz başa gələn əsas ərzaq məhsulu hesab olunur.

Təbiət bizim sərvətimizdir, həyatımızın bir hissəsidir. Onun qorunması, inkişaf etdirilməsi  və gələcək nəsillərə oluğu kimi çatdırılması hər bir ölkə vətəndaşının müqəddəs borcu olmalıdır. Eyni zamanda insanlar öz qida rasionlarında zülalla zəngin olan at paxlası bitkisinin məhsullarına üstünlük verməklə daha sağlam yaşamalarına zəmin yaratmış olar.

Belə bir nəticəyə gəlirik: 1) Hər il 22 may tarixində "Beynəlxalq biomüxtəliflik günü" kimi qeyd edilməsinə və ölkə əhalisinin bu sahədə maarifləndirilməsinə böyük ehtiyac var. 2) ICARDA Beynəlxalq seleksiya mərkəzindən introduksiya olunan 234 at paxlası (Vicia faba L.) sortnümunələrinin təsərrüfat göstəricilərinə görə qiymətləndirilmiş və bir sort "Şirvanşah" adı altında rayonlaşdırmaya və patent almaq üçün Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Xidmətlər Agentliyinə təqdim edilmişdir.

## Ədəbiyyat

1. Willett, W., Rockström, J., Loken, B., Springmann, M., Lang, T., Vermeulen, S., Garnett, T., Tilman, D., DeClerck, F., Wood, A., et al. (2019). Food in the

Anthropocene: The EAT–Lancet Commission on healthy diets from sustainable food systems. Lancet, 393, 447–492.
2. Duc, G., Aleksić, J. M., Marget, P., Mikic, A., Paull, J., Redden, R. J., Sass, O., Stoddard, F. L., Vandenberg, A., Vishnyakova, M., Torres, A. M. (2015). Faba Bean. In Grain Legumes, Ron, A. M. D., Ed. Springer Science+Business Media: New York, Vol. 10, p.141-178.
3. Warsame, A. O., O'Sullivan, D. M., Tosi, P. (2018). Seed Storage Proteins of Faba Bean (*Vicia faba* L): Current Status and Prospects for Genetic Improvement. J. Agric. Food Chem. 66, 12617-12626.
DOI: 10.1021/acs.jafc.8b04992.
4. Multari, S., Stewart, D., Russell, W. R. (2015). Potential of Fava Bean as Future Protein Supply to Partially Replace Meat Intake in the Human Diet. Compr. Rev. Food Sci. Food Saf., 14, 511-522, DOI: 10.1111/1541-4337.12146

**III Respublika Elmi Konfransı / 12 yanvar 2024 / 27-28**
**III Republican Scientific Conference / 12 january 2024 / 27-28**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/III**

**Nicat Əliyev**
Bakı Dövlət Universiteti
magistrant
nicataliev45@gmail.com

# ABŞERON MİLLİ PARKI ƏRAZİSİNDƏ QORUNAN NADİR BİTKİLƏR

***Açar sözlər**: Abşeron Milli Parkı, nadir bitkilər, Astragalus bakuensis, Colligonum bakuense, psammofit*

***Keywords**: Absheron National Park, rare plants, Astragalus bakuensis, Colligonum bakuense, psammophyte*

Məlum olduğu kimi, biomüxtəlifliyin qorunmasının ən effektiv üsulu ərazi mühafizəsidir (Eken, Leon, Thomas, Will, 2004: 1110-1118) ki, bu məqsədlə də müxtəlif kateroriyaya aid xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləti yaradılır. (Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında Azərbaycan Respublikasının qanunu, № 840-IQ, 24 mart 2000-ci il).

Respublikamızın zəngin və unikal təbiətinin qorunmasında Abşeron Milli Parkının da öz rolu vardır. Milli Park Abşeron yarımadasının cənub-şərq qurtaracağında, rayonun Şah Dili adlanan hissəsində 783 hektarlıq sahədə dəniz səviyyəsindən -26 m. hündürlükdə yerləşir. Milli Parkdakı yarımsəhra, sahilkənarı qumluq ərazilər, qamışlıqlar, gölməçələr və Xəzər dənizi kimi biotoplarda xeyli bitki və heyvan növləri yaşayır.

2022-2023-cü illərdə Milli Parkın ərazisində bitki örtüyünü öyrənərkən burada tərəfimizdən müxtəlif fəsilələrə aid 150 növ borulu bitkilər müşahidə edilmişdir. Bunların arasında 3 fəsilə və 3 cinsə aid AR Qırmızı Kitabına (2023) daxil edilmiş 3 növ də vardır (AR Qırmızı Kitabı, 2023: 507).

Fəsilə: Fabaceae

DOI: https://doi.org/10.36719/2663-4619/2024/III

Cins:Astragalus

Növ: Bakı paxladəni (gəvəni) - *Astragalus bakuensis* Bunge;

Fəsilə: Rubiaceae

Cins: Galium

Növ: Abşeron dilqanadanı - *Galium murale* All. (= *G. apsheronicum* Pobed.),

Fəsilə: Polygonaceae

Cins: Calligonum

Növ: Bakı cuzğunu - *Calligonum bakuense* Litv.

Göstərilən növlər IUCN-in kateqoriya və kriteriyalarına görə milli səviyyədə aşağıdakı qorunma statusuna malikdir:

Bakı paxladəni CR B2b(i,ii,iii,iv,v);

Abşeron dilqanadanı DD;

Bakı cuzğunu EN B1ab(i,ii,iii,iv,v)+2ab(i,ii,iii,iv,v).

Göstərilən növlərin hər üçü psammofitlər qrupuna aiddir və onların təbii yaşayış məskənlərində populyasiyasının azalmasına səbəb biotopların tikinti və infrastruktur altında qalması, qumluqların daşınması, otarma amilləridir.

Hazırda bu növlərin populyasiyasının Abşeron Milli Parkı ərazisində mühafizə edilməsi onların gələcək nəsillərə çatdırılması baxımından çox ümidvericidir.

## Ədəbiyyat

1. Eken, G., Leon, B., Thomas, M.B., Will, D, et al. (2004). Key biodiversity areas as site conservation targets, BioScience, Oxford University Press. Vol.54, Iss:12, p.1110-1118.
2. Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında Azərbaycan Respublikasının qanunu, № 840-IQ, 24 mart 2000-ci il.
3. AR Qırmızı Kitabı, III cild. (2023). Nadir və nəsli kəsilməkdə olan flora növləri. "İmak", 507 s.

III Respublika Elmi Konfransı / 12 yanvar 2024 / 29-32
III Republican Scientific Conference / 12 january 2024 / 29-32
DOI: https://doi.org/10.36719/2663-4619/2024/III

**Günel Novruzlu**
Azərbaycan Meliorasiya Elmi-Tədqiqat İnstitutu
g-novruzlu @mail.ru

# SU EHTİYATLARINDAN SƏMƏRƏLİ İSTİFADƏ OLUNMASI PROBLEMLƏRİ

***Açar sözlər:*** *su ehtiyatları, şirin su, su çatışmazlığı, suvarma suyu, suvarma sistemləri*

***Keywords:*** *water resources, fresh water, lack of water, irrigation water, irrigation system*

Hal-hazırda dünyada ən qlobal problemlərdən biri şirin su ehtiyatlarının çatışmazlığıdır. Belə ki, bu gün dünyada əhalinin hər 10 nəfərindən biri su qıtlığından əziyyət çəkir. Bu təhlükənin get-gedə daha da artaraq 2025-ci ildə dünya əhalisinin 2/3 hissəsini əhatə edəcəyi ehtimal olunur. (Musayev, Məmmədov, Zərbəliyev, 2009: 197). Təəssüf ki, dünyanın məhdud su ehtiyatlarına malik ölkələri sırasında yer alan respublikamız da bu problemlə üz-üzə qala bilər. Bu arzuolunmaz fakt isə respublikamızda mövcud su ehtiyatlarından maksimum dərəcədə səmərəli istifadə olunmasını zəruri edir. Lakin su təsərrüfatı sahəsində bu gün bir sıra problemlərin hələ də mövcud olması su ehtiyatlarından tam səmərəli istifadə olunmasına imkan vermir.

Aparılan müşahidələr respublikamızda su ehtiyatlarından səmərəli istifadə olunmasına maneəçilik yaradan əsasən aşağıdakı amillərin olduğunu göstərir :

1) Yerüstü su ehtiyatlarının 72,2 %-nin qonşu ölkələrdə formalaşaraq transsərhəd çayları vasitəsilə ərazimizə daxil olması; (Əhmədzadə, Həşimov, 2016: 67).

2) Suvarma suyunu su mənbəyindən əkin sahələrinə nəql edən qurğularda (magistral, təsərrüfatlararası, təsərrüfatdaxili və s. kanallar) baş verən su itkiləri;

3) Suvarma sistemlərinin düzgün istismar olunmaması;

4) Sudan istifadədə israfçılığa yol verilməsi.

Respublikamızın illik yerüstü su ehtiyatının 72,2 %-i transsərhəd çayları vasitəsilə ərazimizə daxil olur. Son illər transsərhəd çayları vasitəsilə respublikamıza daxil olan suların həcminin azaldılması istiqamətində qonşu ölkələr tərəfindən atılan arzuolunmaz addımlar, eləcə də dünyada gedən qlobal iqlim dəyişiklikləri ölkəmizdə su ehtiyatlarının azalmasına səbəb olur.

Respublikamızda mövcud və istismarda olan suvarma şəbəkələrinin əksəriyyətinin açıq tipli (kanal, nov kanal və s.) və torpaq məcralı olması burada sızma və buxarlanmaları qaçılmaz edir ki, nəticədə də bu suvarma şəbəkələri ciddi su itkilərinə məruz qalır. Respublikamızın Ucar, Bərdə, Salyan, Xaçmaz, Lənkəran və Şərur rayonlarında aparılan tədqiqat işləri nəticəsində müəyyən edilmişdir ki, torpaq məcralı kanallarda su itkiləri suvarmaya verilən suyun 45-60 %-ini təşkil edir. Ümumiyyətlə, bu gün ölkəmizdə ümumi uzunluğu təxminən 50000 km-ə yaxın olan magistral, təsərrüfatlararası və təsərrüfatdaxili kanalların 78 %-i torpaq məcrada tikildiyi və uzun müddət istismar olunduğu üçün bu kanallarda böyük həcmdə baş verən sızmalar nəticəsində xeyli su itkisinə yol verilir.

Bu fakt bir daha onu göstərir ki, respublikamızda su ehtiyatlarından daha səmərəli istifadə olunması üçün sızma itkilərinin qarşısının alınması istiqamətində müvafiq tədbirlərin görülməsinə ciddi ehtiyac vardır.

Suvarma sistemlərinin istismarında yol verilən yanlışlıqlar, suvarma şəbəkələrinin suölçən qurğularla tam təchiz olunmaması, sudan istifadə edərkən israfçılığa yol verilməsi,

DOI: https://doi.org/10.36719/2663-4619/2024/III

magistral kanallara qeyri-qanuni qoşulmalar və digər bu kimi arzuolunmaz addımların mövcudluğu da sudan səmərəli istifadə olunması sahəsində ciddi problemlər yaradır.

Bütün bu sadaladığımız amillər isə mövcud şirin su ehtiyatlarından səmərəli istifadə edilməsinə maneə olan problemlərin aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlərin görülməsini ölkəmizin qarşısında duran mühüm vəzifələrdən biri edir.

Qeyd etmək lazımdır ki, respublikamızda son illər su ehtiyatlarından səmərəli istifadə olunması ilə bağlı, xüsusən də, su itkilərinin qarşısının alınması istiqamətində müvafiq addımlar atılır.

Torpaq məcralı bəzi kanalların betonla üzlənməsi, yeni su təsərrüfatı obyektlərinin layihələri hazırlanarkən suvarma şəbəkələrinin maksimum dərəcədə qapalı sistemdə olmasına üstünlüyün verilməsi, açıq tipli şəbəkələrin tikintisində su keçirməyən materialların tətbiq olunması ilə sızmaların minimuma endirilməsinə cəhd edilməsi və s. bu kimi mütərəqqi tədbirlər görülür.

Əlbəttə, bu işlərin görülməsi təqdirəlayiq addımlar olsa da, tam yetərli də deyildir. Problemi həll etmək üçün bir sıra digər kompleks tədbirlər də həyata keçirilməlidir. Bu məqsədlə, ilk növbədə, yerli kiçik çaylar, xüsusən də dağ çayları üzərində su anbarlarının inşa edilməsi, eləcə də gursulu dövrlərdə əraziləri sel, daşqın sularından etibarlı mühafizə etməklə yanaşı, sel və daşqın sularını sututarlara toplamaq və beləliklə də bu suların axınının idarə edilməsinə nail olmaqla problemin həllinə müəyyən qədər müsbət töhfə vermək olar.

Sudan istifadə ilə bağlı qanunvericilik bazasında müəyyən əlavə və dəyişikliklərin edilməsi, suvarma suyundan istifadə ilə bağlı taarif qiymətlərinə yenidən baxılması və s. bu kimi digər məsələlərin hərtərəfli müzakirə olunaraq müvafiq qərarların qəbul olunması, əhali, sudan istifadə edənlər arasında

DOI: https://doi.org/10.36719/2663-4619/2024/III

maarifçilik işinin daha gücləndirilməsi ilə sudan istifadədə israfçılıq hallarının müəyyən qədər azaldılmasına nail olmaq mümkündür.

## Ədəbiyyat

1. Əhmədzadə, Ə.C., Həşimov, A.C. (2016). “Ensiklopediya. Meliorasiya və Su Təsərrüfatı”. Bakı, s.67.
2. Musayev, Z. S., Məmmədov, K.M., Zərbəliyev, M.S. (2009). “Su ehtiyatlarının inteqrasiyalı idarə olunması”. Bakı, s.197.

III Respublika Elmi Konfransı / 12 yanvar 2024 / 33-36
III Republican Scientific Conference / 12 january 2024 / 33-36
DOI: https://doi.org/10.36719/2663-4619/2024/III

**Babək Allahverdiyev**
Milli Müdafiə Universiteti
Hərbi Elmi Tədqiqat İnstitutu
doktorant
binnsc6@gmail.com

# MÜHARİBƏNİN TARİXİ İNKİŞAF FORMALARI VƏ MÖVCUD ANALOGİYALARI

***Açar sözlər:*** *Müharibə anlayışı, müharibə növləri, müharibənin inkişaf formaları, müasir texnologiyaların müharibəyə təsiri, müharibə strategiyaları*

***Keywords****: Concept of war, types of war, development forms of war, impact of modern technologies on war, war strategies*

Müharibə beynəlxalq sistemin əsas aktorları olan dövlətlər və ya onlar içərisindəki böyük kütlələr arasında şiddəti özündə cəmləşdirməklə aparılan iri həcmli münaqişə, ya da çarpışmadır. (1)

Müharibənin mənşəyi haqqında danışanda ilk öncə onun tarixi inkişaf formaları və tarixən mövcud analogiyalar barədə bəhs etmək lazımdır. Müharibə mövzusundakı tarixi və şüurlu müzakirələr, müharibədə stratejik düşüncənin təməllərini atan iki önəmli əsərlə başlanır. Bunların ilki Çinli hərbi general, strateq, filosof və hərb nəzəriyyəçisi Sun Tzu tərəfindən e.ə VI əsrdə yazılmış bir klassik əsər olan "Hərb sənəti"dir ki, müəllif bu kitabında müharibə zamanı əmr və idarəetmənin əhəmiyyətini araşdırır. Müharibə ilə bağlı konseptual müzakirələri ələ alan bir digər klassik əsər isə Atinalı tarixçi və general Fukidid tərəfindən yazılmış beynəlxalq münasibətlər nəzəriyyələri arasında realizmin ilk yazılı əsəri sayıla bilən, Atina ilə Sparta arasında e.ə 431-404-cü illər arasında baş

**III Respublika Elmi Konfransı / 12 yanvar 2024 / 33-36**
**III Republican Scientific Conference / 12 january 2024 / 33-36**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/III**

vermiş və iyirmi yeddi il davam edən müharibələrin izah edildiyi “Peloponnes müharibəsi” başlıqlı kitabı müharibə ideyasının və müharibə strategiyasının əsaslarını qoyur. Prussiyalı general Karl Von Klauseviç “Müharibə haqqında” adlı əsərində müharibəni zorakılıq tətbiq edərək düşmənə tələblər qoyma hərəkəti olaraq təyin edir.

Müharibə haqqında yazılar göstərir ki, müasir müharibələr bütün növ müharibə nəzəriyyələrindən daha sürətli formada dəyişir (Klauseviç, 1831: 18). Mövzuya müharibənin tarixi dönüşümü istiqamətindən baxıldığında müasir dövlətlərin və müasir silahlar istifadə edən müasir orduların görünməyə başlandığı 15 may 1648-ci il tarixli Westfalya müqaviləsi ilə başlayan dövrün müharibələri, birinci nəsil müharibələr şəklində sinifləndirilməkdədir. Bu nəsil müharibələrdə yoğun atəş gücü yerinə insan gücü əsas taktiki ünsürdür və müharibələr vasitəsi ilə döyüş aparmayan kütlələr ayırd edilməkdədir. Bu dövr dünya siyasətinin həlledici doktrinası, “Güclər balansı” və bu çərçivədə balansı pozmağa çalışan ünsürlərlə birgə mübarizədir (Sokullu, 2019: 4).

Dövrün sonu, yeni dövrün başlanğıcı Almaniyanın Avropanı müstəqilliyi altına almaq məqsədi ilə imperialist xarici siyasət izləməsinin bir nəticəsi olan birinci dünya müharibəsi ikinci nəsil müharibələrindəndir. İkinci nəsil müharibələri ağır atəş gücünü özündə cəmləşdirən və geniş sahələrə yayılan müharibələrdir.

Üçüncü nəsil müharibəsi münbit hava şəraitində hazırlıqlı Ordu ilə sürətə, manevrə və düşmən qüvvələrinin müharibə ərazisində tam məhvinə əsaslanan və ikinci dünya müharibəsində almanlar tərəfindən istifadə edilən ildırımsürətli müharibə (Blitzkriq) ilə tarixə adını yazdırmışdır. Bu müharibə taktikası müharibə gedişinin ildırım sürətli aparılması məqsədi ilə XX əsrin əvvəllərində feldmarşal Alfred Fon Şliffen tərəfindən aparılmış gərgin hərbi kampaniyanın nəticəsində

DOI: https://doi.org/10.36719/2663-4619/2024/III

yaradılmışdı. Bu dövrdə yüksək texnologiya ilə yanaşı, hava qüvvələrinin elementlərinin tətbiqi də həmin bu müharibə taktikasının tərkib hissəsi olaraq xüsusi önəmə malik idi (Angstrom, 2005: 25-27).

Dördüncü nəsil müharibələr bütün siyasi, iqtisadi, sosial və hərbi şəbəkələrin birlikdə istifadə edildiyi şəbəkə mərkəzli, böyük iqtisadi və hərbi gücləri məğlub etməyi hədəfləyən və uzun müddət sürən, ictimai həyatın bütün sahələrini əhatə edən müharibələrdir. Bu müharibə nəslinə, rəqiblər tərəfindən çəkindirmə və balanslaşdırma siyasətinin izləndiyi və qarşıdurmaların qarşısının alınmasına xidmət edən diplomatik vasitə kimi yüksək inkişaf etmiş hərbi texnologiyalardan istifadə olunan soyuq müharibəni də misal kimi göstərmək olar.

Bu gün müharibələr Birləşmiş Millətlər Təşkilatının müəyyən prinsip və qaydalarına əsaslanır (Barston, 2019: 4-7). Keçmişdəki müharibələrdən fərqli olaraq, bugünkü müharibələrin məqsədi dinc insanların öldürülməsinin qarşısını almaq, ölkəni və ya kütlələri məhv etmək əvəzinə zəiflətməkdir. Bu tip müharibələr müasir müharibələr adlanır və əvvəlki hərbi konsepsiyalardan, metodlardan və texnologiyadan əhəmiyyətli dərəcədə fərqlənir. Bu mühəribələrdə döyüşçülərin döyüş meydanındakı gücünü qorumaq üçün necə modernləşdirilməlisinin zəruriliyi yüksək önəm kəsb edir (Benbow, 2008:1-6).

İkinci Qarabağ müharibəsi bu gün müasir müharibələr üçün ən aktual nümunədir. Vətən müharibəsi olaraq tarixə düşən şanlı 44 günlük müharibəmiz cəmi altı həftə davam etsə də, itkilər baxımından postsovet bölgəsinin ən böyük müharibələrindən biridir. İkinci Qarabağ müharibəsi tarixdə ilk dəfə olaraq pilotsuz uçuş aparatlarından istifadə edilərək hərbi məqsədlərə nail olunan müharibə kimi qiymətləndirilir və hərbi strategiyada çoxdan gözlənilən bir inqilab olaraq xarakterizə

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/III**

etdilir (Cəfərova, Huseynov, Bağırov, Hacıyev, Əsgərova, 2021: 23-25).

Artıq yaranmış bu yeni mühitdə demək olar ki, cəbhə müharibələri başa çatıb, eyni zamanda odlu silahdan istifadə məhdudlaşdırılıb. Daha çox pilotsuz nəqliyyat vasitələrindən istifadə edilməyə başlanılıb. Gələcəkdə müharibə tamamilə başqa bir sahəyə doğru gedir.

## Ədəbiyyat

**1.** https://www.globalvillagespace.com/what-is-hybrid-warfare-ikram-sehgal/
2. K.V.Klauseviç (1831). Müharibə haqqında, Kitab I, Fəsil I.18s.
3. E.C.Sokullu, (2019). Savaş türleri, İstanbul. Güvenlik yazıları serisi, No.22, 4 s.
4. J.Angstrom, (2005). Introduction: Discussing the Nature of Modern War,London.Frank Cass, 25-27s.
5. R.P.Barston, (2019). Modern Diplomacy. London, Routledge. 4-7s.
6. T.Benbow, (2008). Are you talking about our generation? “Evaluating the Concept of Fourth Generation Warfare’”, Comparative Strategy. London, Pearson.1-6s.
7. 44 günlük Qarabağ müharibəsi: mülahizə və nəticələr. E. Cəfərova, V.Huseynov, O.Bagirov, Ş. Hacıyev, R. Əsgərova. Bakı, Elm. 23-25s.

# İÇİNDƏKİLƏR

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

## HUMANITIES AND SOCIAL SCIENCES

**Nuranə Nuriyeva**
Vaşinqton İrvinq yaradıcılığında oriyentalist təmayüllər .........5
**Gulnaz Hasanova**
Contemporary mass media in the new stage of
international relations ...............................................................9
**Vaqif Dadaşzadə**
Dövlətin informasiya siyasətində informasiya müharibəsi .....11
**Ayşən Aslan-Məmmədli**
Müstəqil Dövlətlər Birliyinin yaranması:
səbəbləri, geosiyasi nəticələri ..................................................15

## TƏBİƏT ELMLƏRİ

## NATURAL SCIENCES

**Sədaqət Camıyeva**
At paxlası (*Vicia faba* L.) sortnümunələrinin morfoloji
göstəricilərinin Abşeron suvarma şəraitində tədqiqi ...............19
**Sədaqət Camıyeva**
Bioloji müxtəlifliyin əsas aspektləri və qidalanmada
at paxlasının *(Vicia faba* L.*)* rolu ............................................22
**Nicat Əliyev**
Abşeron Milli Parkı ərazisində qorunan nadir bitkilər ...........27
**Günel Novruzlu**
Su ehtiyatlarından səmərəli istifadə olunması problemləri .....29
**Babək Allahverdiyev**
Müharibənin tarixi inkişaf formaları və mövcud
analogiyaları ...........................................................................33

İmzalandı: 09.01.2024
Kağız formatı: 60x84 1/16
H/n həcmi: 2,5 ç.v.
Sifariş: 713

www.aem.az saytında çap olunub.
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.
"Azərbaycan" nəşriyyatı, 6-cı mərtəbə
Tel.: +994 50 209 59 68
+994 55 209 59 68
+994 12 510 63 99
e-mail: info@aem.az